UOT 911.3

# PREZİDENT İLHAM ƏLİYEVİN SOSİAL LAYİHƏSİ – ASAN XİDMƏT MƏRKƏZLƏRİNİN MÜASİR DÖVRDƏ VƏTƏNDAŞ MƏMNUNİYƏTİNİN TƏMİN OLUNMASINDA ƏHƏMİYYƏTİ

**Namiq Tahir oğlu Ağaməmmədov**
coğrafiya üzrə fəlsəfə doktoru
Dağlıq Şirvan Regional Təhsil İdarəsi
E.Həsənov adına Mücühəftəran kənd tam orta məktəbi
naqamemmedov@mail.ru

***Xülasə:*** *Məqalədə Azərbaycan Respublikasında Prezident İlham Əliyevin sosial layihəsi olan ASAN xidmət Mərkəzlərinin vətəndaş məmnuniyyətinin təmin olunmasında və sosial sferanın innovativ inkişafına töhfəsi statistik, sosial sorğu, tarixilik və müqayisə metodları ilə tədqiq edilib. Müəllif belə qənaətə gəlib ki, 2013-cü ildən fəaliyyətə başlayan ASAN xidmət Mərkəzləri sosial sferada inqilabi və təkamülə səbəb olmuşdur.Tarixi zaman intervalında əhaliyə göstərilən sosial-innovativ xidmətlərdə etik normalara riayət olunması, vaxt itkisi və əlavə xərclərin azalması, dövlət strukturlarına etimadın güclənməsi, elektron xidmətlərdən daha geniş istifadə olunması, vətəndaş-məmur təmaslarının şəffaflaşması baş vermişdir. ASAN xidmətlərlə yanaşı ASAN Kommunal, Ailə biznesinə ASAN dəstək (ABAD) mərkəzləri, Özünəxidmət sektorları əhaliyə yüksək səviyyəli xidmətlər göstərir. ASAN xidmət Mərkəzləri olmayan rayonlarda xidmətlərin əlçatanlığının təmin olunması üçün Səyyar ASAN xidmətlər təşkil edilmişdir. ASAN radio, ASAN ödəniş, ASAN könüllülük məktəbi məşğulluq, informasiyalaşdırma, nağdsız ödənişlərin artırılmasında mühüm rol oynayır. Sosial sorğu nəticəsində müəyyən olunub ki, əhalinin göstərilən xidmət səviyyəsindən razılığı 98 %-dən yüksək olmuşdur. Gələcəkdə təhsil, səhiyyə və mədəniyyət sahəsindəki xidmətlərin ASAN xidmətlərə inteqrasiyası tövsiyə olunmuşdur.*

***Açar sözlər:*** *Prezident İlham Əliyev, sosial layihə, ASAN xidmət, vətəndaş məmnuniyyəti, ASAN Kommunal, Ailə biznesinə ASAN dəstək (ABAD) mərkəzləri, ASAN radio, ASAN ödəniş, ASAN könüllülük məktəbi, sosial sorğu*

## Giriş

Azərbaycanda icra olunan dövlət siyasətinin əsas prioritetlərindən biri də vətəndaşların rahatlığının və məmnunluğunun təmin edilməsidir. “ASAN xidmət” sosial infrastrukturu Prezident İlham Əliyevin təklifi əsasında təşkil olunmuşdur. Xidmətin təşkili zamanı müasir innovativ informasiya-kommunikasiya texnologiyalarından istifadə olunmuşdur. Məmur-vətəndaş ünsiyyəti zamanı neqativ halların minimuma endirilməsi, rahat və keyfiyyətli xidmətin təklif edilməsi, vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azaldılması, korrupsiyaya qarşı mübarizə, elektron xidmətlərdən daha geniş istifadə, dövlət orqanlarına etimatın artırılması əsas hədəflərdəndir. Ölkədə 2013-cü il yanvar ayının 1-dən etibarən “ASAN xidmət” sosial layihəsi fəaliyyətə başlamışdır. “ASAN xidmət” (Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi-Azerbaijan Service and Assessment Network) əhalinin sosial sfera ilə əlaqəli sənədləşmə işlərini əlverişli hala gətirmişdir. “ASAN xidmət” mərkəzlərinin sayı getdikcə artmaqdaır. Hazırda aşağıdakı mərkəzlər fəaliyyət göstərir: Bakı 1, 2, 3, 4, 5, 6, 7 saylı “ASAN xidmət” mərkəzləri; Sumqayıt 1 və 2 saylı regional “ASAN xidmət” mərkəzləri; Gəncə 1 və 2 saylı regional “ASAN xidmət” mərkəzləri; Qəbələ; Şamaxı; Sabirabad; Bərdə; Masallı; Quba; Mingəçevir; Şəki; İmişli; Ağcabədi; Kürdəmir; Tovuz; Balakən“ASAN xidmət” mərkəzləri.

Müasir elmi innovasiyaların iqtisadi sistemlərə tətbiqi tarixən maraq doğurmuşdur. Azərbaycanda son dövrlərdə xüsusi ilə rabitə və informsiya texnologiyaları sahəsində uğurlar əldə olunmaqdadır. Azərbaycanın ilk telekommunikasiya peykinin fəaliyyəti artıq gəlirli sahəyə inteqrasiya etməkdədir [5, s. 60].

**Ədəbiyyat məlumatlarının təhlili və "ASAN xidmət" mərkəzlərinin fəaliyyət sahələri**

Sosial infrastruktur sahələrində elmi-tədqiqat işi aparmış alimlərdən A.A.Nadirovu, B.Ə.Budaqovu, Ş.Y.Göyçaylını, V.Ə.Əfəndiyevi, Ş.V.Bayramovu, T.G.Həsənovu,Z.N.Eminovu, Ə.Q.Əlirzayevi, N.H.Əyyubovu, F.P.Rəhmanovu, V.T.Novruzovu, A.A.Quliyevanı, M.H.Zeynalovu, A.Ş.Şəkərəliyevi, Q.A.Şəkərəliyevi, İ.N.Şuklini, G.R.Ağakişiyevanı, S.K.Mordovini, V.M.Jerebini, İ.S.Pakulini, S.A.Kovalevi qeyd etmək lazımdır.

"ASAN xidmət" mərkəzlərində göstərilən xidmətlərə aiddir: notariat fəaliyyəti, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, məhkumluq barədə arayışların verilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, arxiv arayışlarının, arxiv sənədlərindən çıxarışların, arxiv sənədlərinin təsdiq olunmuş surətlərinin verilməsi, daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı, miqrasiya xidmətləri, kommersiya hüquqi şəxslərin və vergi ödəyicilərinin qeydiyyatı, Gömrük işi sahəsində xidmətlərin göstərilməsi, lisenziyaların verilməsi, dövlət orqanlarının "ASAN xidmət" mərkəzlərində göstərdikləri bütün xidmətlər üzrə informasiya xidmətinin həyata keçirilməsi, yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər barədə arayışın verilməsi, funksional yardımçı xidmətlər, hərbi qeydiyyat, Qida təhlükəsizliyi tərəfindən göstərilən xidmətlər, Xarici işlər Nazirliyi tərəfindən göstərilən xidmətlər, Əmək pensiyalarının təyin edilməsi. Dövlət innovasiya prosesinin dinamik inkişafında mühüm vasitə olan infrastrukturun yaradılmasına kömək edir [7, s. 296].

"ASAN xidmət" brendi çərçivəsində "ASAN Kommunal" mərkəzləri də fəaliyyətə başlamışdır. Üç xidmət mərkəzi təşkil olunmuşdur (Bakı, 1; 2 və 3 saylı). Bu mərkəzlərdə "Azərişıq" ASC, "Azəriqaz" MMC və "Azərsu" MMC tərəfindən müxtəlif xidmətlər icra olunur. Burada göstərilən xidmətlərə funksional yardımçı sahələr də aid olunur ("Azəristiliktəchizat" ASC, Kapital bank, bank olmayan kredit təşkilatı "İdeal kredit" MMC, güzəştli mənzillər, "SOCAR KAPİTAL" MMC, İpoteka və Kredit Zəmanət Fondu, "Prime Tax" consulting xidməti, tərcümə xidmətləri).

"ASAN xidmət" mərkəzlərinin olmadığı yaşayış məntəqələrində insanların xidmətə əlçatanlığının təmin olunması məqsədi ilə "Səyyar ASAN xidmət" avtobusları fəaliyyət göstərir. Bu avtobuslar qrafikə uyğun olaraq xidmət dairəsinə daxil olan rayonlarda əhalinin müraciətlərinə cavab verir. Bakı, Sumqayıt, Sabirabad, Gəncə, Qəbələ, Quba, Masallı, Bərdə "Səyyar ASAN xidmət" avtobusları mövcuddur. "Səyyar ASAN" qatarı Lənkəran, Astara, Ağstafa istiqamətini əhatə edir.

Davamlı inkişaf yeni dövrün ən aktual problemi olmaqla təbii, iqtisadi, sosial və mədəni mühitlərin planlaşdırılmasını, idarəedilməsini və monitorinqini qarşıya məqsəd qoyur. Bu halda davamlılıq sosial, etik, iqtisadi və ekoloji aspektlərdən təmin olunmalıdır [2, s. 22].

Bütün "Səyyar ASAN xidmət" mərkəzlərində özünəxidmət bölməsi insanların rahatlığını təmin edir. Burada həmişə interneti olan kompüterlər vətəndaşların xidmətindədir. Kompüterlərdə bütün növ xidmətlərdən yararlanmaq mümkündür.

**İcra olunan sosial-innovativ layihələr**

Gələcək peşəkar kadr potensialının formalaşdırılması üçün "ASAN Könüllüləri" qruplarının təcrübəsi uğurla sınaqdan keçirilir. Müəyyən dövr ərzində özünü doğruldan könüllülər sonradan mərkəzlərdə daimi işlə təmin olunmaq şansı qazanır. Gələcəkdə bu sahədə çalışa biləcək kadrların hazırlanması prosesi MDU-da aparılır. İnnovativ yönümlü təhsilin təşkili, proqnozlaşdırılması və planlaşdırılması, keyfiyyət göstəricilərinin monitorinqi və qiymətləndirilməsi bunu deməyə əsas verir [1].

Əhalinin mədəni-mənəvi tələbatını ödəmək üçün kütləvi informasiya vasitəsi olan "ASAN Radio" dinləyicilərin zövqünü oxşayır. Dövlət xidmətləri sahəsində ixtisaslaşmış yeganə radio kimi insanlara informasiya daşıyır. Beynəlxalq təşkilatlar, dövlət qurumları, aparıcı şirkətlərlə səmərəli əməkdaşlıq edir. Statistik məlumatların təqdim olunması ictimaiyyət tərəfindən təhlil işini stimullaşdırır. Dövlət və biznes tərəfindən aqrar sənaye müəssisələrində elmi, texniki və innovasiya siyasətini müəyyənləşdirən əhəmiyyətli kapital qoyuluşlarının həyata keçirilməsi lazımdır [6, s. 126]. 2013-2022-ci illər ərzində vətəndaşlar tərəfindən olunan sorğulara əsasən ən çox müraciət

olunan sahələr şəxsiyyət vəsiqəsi (26,5 %), notariat fəaliyyəti (14 %), ümumvətəndaş pasportu (9,7%) olmuşdur (şək. 1).




**Şək. 1.** Ən çox müraciət olunan xidmətlər (%-lə). *Mənbə:http://vxsida.gov.az/statistics/*

Azərbaycan Respubikasında kiçik biznesə dəstək məqsədi ilə hazırlanmış xüsusi proqramlardan biri də Ailə biznesinə ASAN dəstək (ABAD) mərkəzləridir. “ABAD” – Ailə Biznesinə Asan Dəstək publik hüquqi şəxs olmaqla Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Sosial Xidmət və İnnovasiyalar üzrə Dövlət Agentliyinə tabedir. “ABAD” ın əsas amalı ölkənin sosial-iqtisadi inkişafına əhalinin fəal cəlb edilməsi, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, əhali məşğulluğunun artırılması və rəqabətədavamlı ailə təsərrüfatlarının təşkil edilməsidir. Müasir cəmiyyətin sənayedən informasiyaya keçməsinin hərəkətverici qüvvəsi innovasiya prosesidir. Dünya təcrübəsini araşdırdıqda aydın olur ki, innovasiya prosesləri demək olar ki, uyğun siyasətin formalaşdırılması və innovativ fəaliyyəti təşkil etməklə Mərkəzlərdə dekorativ-dövlət tərəfindən təşviq olunmaqla yanaşı, nizamlanır [4, s. 47]. Tətbiqi xalq sənətkarlığı və ərzaq məhsullarının istehsalı sahələrinin inkişafına kömək olunur. Dəstək istiqamətləri aşağıdakı sahələri əhatə edir:

- marketinq;
- biznes-planlaşdırma;
- təlimlər;
- brendinq və dizayn;
- maliyyə-mühasibat;
- hüquqi yardım;
- satışın təşkili və müvafiq avadanlıqla təminat;
- məhsulların “bir pəncərə” prinsipi üzrə sertifikatlaşdırılması;
- logistika işinin və satışların təşkili.

İnnovativ proseslərin inkişafı üçün dövlətin innovasiya siyasətinin vəzifələrindən irəli gələn vəzifələr həll edilməlidir [3, s. 80].

Maraqlı xidmət növlərindən biri də “ASAN İmza”dır. “ASAN İmza” (Mobil İD) müxtəlif dövlət və özəl qurumlarda mobil telefonla elektron imza kimi istifadə etməyə, sənədləri imzalamağa imkan verir. “ASAN İmza” (Mobil İD) vasitəsilə gömrük, vergi, maliyyə, təhsil və digər sahələrdə əməliyyatlar aparmaq mümkündür. Autentifikasiya və “ASAN İmza” sertifikatları İqtisadiyyat Nazirliyinin Vergilər Xidməti (ASXM) tərəfindən təqdim olunur. Texnologiyanın əsas üstünlüyü ondan ibarətdir ki, smart kartlar əlavə qurğular və proqram təminatı olmadan istifadə olunur.

Sertifikat vətəndaşlara, sahibkarlıqla məşğul olan hüquqi və fiziki şəxslərə, dövlət və yerli idarəetmə orqanı əməkdaşlarına verilir.

Artıq dünyada "ASAN xidmət" Azərbaycan brendi kimi tanınır və təcrübə tətbiq olunmaq üçün öyrənilir.

**Nəticə**

1. Gələcəkdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əhalinin müasir telekommnikasiya və texnoloji xidmətlərlə təmin olunması üçün "ASAN xidmət" mərkəzlərinin açılması məqsədəuyğundur.
2. Müasir innovativ proqramların ölkə iqtisadiyyatına tətbiqi tarixən əhalinin həyat səviyyəsinin və mədəni etikasının yüksəlməsinə səbəb olmuşdur.
3. "ASAN xidmət" mərkəzlərində göstərilən xidmətlərin təhsil, səhiyyə, mədəni-mənəvi sahələrə tətbiqi keyfiyyətə nail olunması cəhətdən aktualdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Bayramov Ş.V. Yeni Keyfiyyət mərhələsi. Azərbaycan. -2020. -8 avqust. -S. 5
2. Ələkbərov U.K. və b.İnsan potensialına əsaslanan sosial müəssisələr Azərbaycanda davamlı innovativ inkişaf texnologiyası kimi. Bakı: Elmin İnkişafı Fondu, 2018. -184 s.
3. Hacıyeva Z.E., Osmanov İ.O. Aqrar sənaye müəssisələinin innovativ inkişafında dövlətin rolu. SDU, Elmi Xəbərlər, Sosial və humanitar elmlər bölməsi, 2020, № 4, s.79-82
4. Qasımova N.Ə. Kənd təsərrüfatının innovativ inkişaf problemləri // "Kooperasiya" elmi-praktiki jurnalı, № 1 (56), 2020, s. 47-51
5. Şəkərəliyev A., Şəkərəliyev Q. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı, "Turxan" NPB, 2016. 536 s.
6. Панасенко С.С. Основные направления и проблемы развития инновационной деятельности в аграрном секторе экономики. Вестник Ростовского государственного экономического университета, 2014 № 1 (45), с. 126-128
7. Саломатин В.А. Инновационные процессы в АПК: сущность и направления развитиятеория и практика общественного развития. Теория и практика общественного развития, 2011, № 8, с. 295-299
8. http://vxsida.gov.az/statistics/

## SOCIAL PROJECT OF PRESIDENT ILHAM ALIYEV – THE IMPORTANCE OF ASAN SERVICE CENTERS IN ENSURING THE SATISFACTION OF CITIZENS IN THE MODERN ERA

**N.Aghamammadov**
Doctor of Philosophy in Geography
Daghlik Shirvan Regional Education Department
Muchuhaftaran village secondary school named after E.Hasanov

***Abstract:*** *In the article, the contribution of ASAN Service Centers, a social project of President Ilham Aliyev in the Republic of Azerbaijan, to the provision of citizen satisfaction and the innovative development of the social sphere was studied using statistical, social survey, historical and comparative methods. The author came to the conclusion that the ASAN service centers, which started operating in 2013, caused a revolution and evolution in the social sphere. In the historical period of time, social and innovative services provided to the population were followed by ethical norms, time loss and additional costs were reduced, trust in government structures was strengthened, electronic wider use of services, transparency of citizen-official contacts has taken place. In addition to ASAN services, ASAN Communal, ASAN family business support (ABAD) centers, Self-service sectors provide high-level services to the population. Mobile ASAN services have been organized to ensure accessibility of services in regions without ASAN service centers.*

*ASAN radio, ASAN payment, ASAN volunteering school play an important role in increasing employment, informatization, and non-cash payments. As a result of the social survey, it was determined that the satisfaction of the population with the level of the provided service was higher than 98 %. In the future, it was recommended to integrate services in the fields of education, health and culture into ASAN services.*

***Keywords:*** *President Ilham Aliyev, social project, ASAN service, citizen satisfaction, ASAN Communal, ASAN family business support (ABAD) centers, ASAN radio, ASAN payment, ASAN volunteering school, social survey*

## СОЦИАЛЬНЫЙ ПРОЕКТ ПРЕЗИДЕНТА ИЛЬХАМА АЛИЕВА – ЗНАЧЕНИЕ СЕРВИСНЫХ ЦЕНТРОВ ASAN В ОБЕСПЕЧЕНИИ УДОВЛЕТВОРЕННОСТИ ГРАЖДАН В СОВРЕМЕННУЮ ЭПОХУ

**Н.Т.Агамаммадов**
доктор философии по географии
Нагорно-Карабахское Ширванское областное управление образования
Средняя школа села Мучухафтаран имени Э.Гасанова

***Резюме:*** *В статье с использованием статистических, социологических исследований, историко-сравнительных методов изучен вклад Центров обслуживания ASAN, социального проекта Президента Ильхама Алиева в Азербайджанской Республике, в обеспечение удовлетворенности граждан и инновационное развитие социальной сферы. Автор пришел к выводу, что центры обслуживания ASAN, начавшие функционировать в 2013 году, вызвали революцию и эволюцию в социальной сфере. В исторический период времени социально-инновационные услуги, оказываемые населению, сопровождались этическими нормами, временем сократились потери и дополнительные расходы, укрепилось доверие к государственным структурам, произошло более широкое использование электронных услуг, прозрачность контактов граждан и должностных лиц. Помимо услуг ASAN, центры поддержки семейного бизнеса ASAN (ABAD), ASAN Коммунал, секторы самообслуживания предоставляют населению услуги высокого уровня. Мобильные услуги ASAN организованы для обеспечения доступности услуг в регионах, где нет центров обслуживания ASAN. Радио ASAN, оплата ASAN, школа волонтерства ASAN играют важную роль в повышении занятости населения, информатизации и безналичных расчетах. В результате социального опроса установлено, что удовлетворенность населения уровнем предоставляемой услуги выше 98 %. В дальнейшем было рекомендовано интегрировать услуги в сферах образования, здравоохранения и культуры в службы ASAN.*

***Ключевые слова:*** *Президент Ильхам Алиев, социальный проект, служба ASAN, удовлетворенность граждан, ASAN Коммунал, центры поддержки семейного бизнеса ASAN (ABAD), радио ASAN, оплата ASAN, школа волонтерства ASAN, социальный опрос*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 19.01.2023**
**Çapa qəbul edilib: 26.01.2023**